**ARZU MƏMMƏDOVA,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Əsaslı Kitabxanasının baş biblioqrafı,*
*arzumemmedkizi@unec.edu.az*

# İNKLÜZİV TƏHSİL VƏ KİTABXANA XİDMƏTLƏRİ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

**Xülasə:** *Məqalədə müasir Azərbaycanın təhsil strategiyasının mühüm sahələrindən biri olan inklüziv təhsil haqqında məlumat verilir.*
*Təhsilin, elmin, mədəniyyətin inkişafında kitabxanaların danılmaz rolundan və inklüziv təhsildə kitabxana xidmətinin tarixi, müasir vəziyyəti müzakirə edilir. Məqalədə kitabxanalar əlilliyi olan gənclərin təhsilə inteqrasiyasında atılan ilkin həm psixoloji, həm də mənəvi addım kimi dəyərləndirilir. Azərbaycanda bu sahədə görülən işlər, əsas problem və perspektivlər önə çəkilir.*
*Məqalədə mövzu üzrə müvafiq məlumat və elmi-pedaqoji ədəbiyyatlara istinad olunub.*
**Açar sözlər**: *inklüziv təhsil, kitabxana xidməti, inklüziv kitabxana, təhsil sistemi, inteqrasiya, təlim.*

Müasir dövr informasiya cəmiyyəti quruculuğu fonunda hər bir ölkənin qarşısında bir sıra strateji vəzifə və tələblər durur. İnkişafın strateji məqsəd kimi müəyyənləşdirilməsi isə ayrı-ayrı sahələrin paralel tərəqqisini və XXI əsrin çağırışlarına adekvat cavab verməyi zəruri edir. Məhz buna görə də, milli dövlətlərin inkişaf konsepsiyasında milli tərəqqini təmin edən əsas faktor kimi strateji əhəmiyyətli sahələrə xüsusi diqqət yetirilməsi müəyyən olunur. Bu baxımdan, təhsil sisteminin inkişafı xüsusi əhəmiyyət daşıyır.

Bəllidir ki, təhsil fenomeni öz strateji əhəmiyyətinə görə dünyanın yeni inkişaf trendlərini, tərəqqinin konseptual əsaslarını müəyyən edir. Bu mənada, qloballaşan dünyanın tələblərinə uyğun təhsil sistemi formalaşdırmaq, bu sahədə davamlı islahatlarla nizamlı inkişafa malik olmaq ölkənin beynəlxalq rəqabətliliyini şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Ümumilikdə, cəmiyyət daxilində təhsil sektorunun inkişafı digər sahələrin də paralel tərəqqisinə mühüm töhfələr verir.

Çağdaş mərhələdə təhsil sahələrindən ən önəmlisi inklüziv təhsili hesab etmək olar. Belə ki, inklüziv təhsil ümumi təhsilin inkişafı prosesidir və hamının – həm uşaqların, həm də gənclərin təhsillə bağlı ehtiyaclarını nəzərə

alaraq, hər vasitə ilə əlçatan olmasını təmin etməyə çalışır. Müxtəlif mənbələrdə inklüziv təhsil belə xarakterizə olunur: "İnklüziv təhsil ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. Bu, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir".

Müxtəlif əqli və fiziki bacarıqlı uşaqların təhsil prosesinə inteqrasiyası kimi tanınan inklüziv təhsil yanaşması əslində "hamı üçün təhsil" strategiyasının məntiqi davamıdır. İnklüziv təhsilin müasir anlamı xüsusi ehtiyacı və ya məhdud fiziki imkanları olan uşaqların ümumi təhsil prosesinə inteqrasiyası haqqında ənənəvi təsəvvürlərdən bir qədər fərqlidir. Burada söhbət əslində ən müxtəlif xüsusiyyətləri və ehtiyacları olan (fiziki, sosial, intellektual və digər mənalarda) uşaqların birgə tədrisə cəlb edilməsindən gedir. YUNESKO-nun müəyyən etdiyi inklüziv təhsilin əsas prinsipinə əsasən, məktəblər maddi, əqli, sosial, emosional və digər vəziyyətlərindən asılı olmayaraq bütün uşaqların ehtiyaclarını qarşılamalıdır: həm əlilliyi olan uşaqları, həm də xüsusi istedadlı uşaqları, kimsəsiz və işləmək məcburiyyətində qalan uşaqları, uzaq ərazilərdən və köçəri ailələrdən gələn uşaqları, etnik və mədəni azlıqların uşaqlarını, eləcə də əlverişsiz şəraitdə yaşayan və ya əhalinin həssas qruplarına aid olan uşaqları bərabər qaydada əhatə etməlidir.

Hazırda müasir cəmiyyətimizin qarşısında duran ən mühüm məsələlərdən biri də müxtəlif müstəvilərdə aktual müzakirə olunan mövzulardan olan fiziki məhdudiyyətli gənclərin ali təhsilə inteqrasiyasıdır. Belə gənclər üçün təhsil bir neçə mərhələdə aparılmalıdır.

Qeyd etmək istərdik ki, inkluziv təhsil sistemi post-sovet məkanında yalnız 50-ci illərdən sonra yaranmağa başlamışdır, çünki uzun müddət sovet cəmiyyətinin qüsursuzluğu, burada yalnız sağlam gənclərin olması, xalqın firavan və xoşbəxt yaşaması təbliğ olunurdu. Valideynlər fiziki məhdudiyyətli övladlarını evdən kənara qoya bilmirdilər, hətta belə ailələr cəmiyyətdən təcrid olunmaq məcburiyyətində qalırdı.

Təhsilin, elmin, mədəniyyətin inkişafında kitabxanaların rolu danılmazdır. Bu gün "kitabxanalar **təlim-tərbiyə və elmi-tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən, bilikləri təbliğ edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzidir"**. İnformasiya-kommunikasiya texnlogiyalarının, konkret desək, İnternetin meydana gəlməsinə qədərki dövr üçün kitabxanaların mahiyyəti və rolu fərqli olmuşdur. Belə ki, kitabxanalar özünün maddi-texniki imkanlarından asılı olaraq özündə insanların asudə vaxtlarını səmərəli keçirməsi, istirahət etməklə bilik əldə etməsi, əylənməsi, intellektual inkişafa xidmət edən müsabiqə, debat, yarışların keçirilməsi, sərgi və təqdimatların nümayiş etdirilməsi və s. funksiyaları da özündə ehtiva edə bilmişdir.

Təbii ki, həm klassik kitabxanaların, həm də müasir dövrün tələblərinə müvafiq olan kitabxanaların sosial-ictimai baxımdan çox böyük əhəmiyyəti vardır. İlk növbədə ona görə ki, kitabxana bilik və informasiya mənbəyidir. Eyni zamanda kitabxana həm də tələbə və gənclərin görüşdüyü, sosiallaşdığı məkan kimi də xarakterizə oluna bilər.

Kitabxanalar fiziki məhdudiyyətli gənclərin təhsilə inteqrasiyasında ilkin atılan həm psixoloji, həm də mənəvi addımlardandır.

İnkluziv kitabxana mövzusu bu gün əksər mütəxəssislər üçün diskussiyadan çox apriori kimi qəbul olunur. Bir tərəfdə "oturuşmuş" ənənəvi kitabxana sistemi, bir tərəfdə hələ indi vüsət almağa başlamış müasir kitabxana kompleksləri üçün bu problem yenidir. Qarşıya doyulan sual isə belədir: sosial institut statusu daşıyan bugünün kitabxanaları inkluziv olmalıdırmı?

Qeyd etmək lazımdır ki, biz də post-sovet ölkələrindən biri kimi Rusiyanın əlilliyi olan şəxslərə dövlət siyasətində eyni inkişaf yolunu keçmişik. Bu inkişaf sxemi belə göstərmək olar: **sosial ekskluziya** (bir qrup insanın sosial və vətəndaş hüquqlarından məhrum edilməsi ilə cəmiyyətdəki sosial aktivliyinə məhdudiyyət qoyulması); **sosial seqreqasiya** (bir qrup insanın cəmiyyət həyatındakı standartlara uyğun gəlməyən bəzi əlamətlərinə görə (yaş, cins, qeyri-ümumi hərəkət, sağlamlıq və s.) kənarlaşdırılması); **diskriminasiya – inteqrasiya – inklüziya.**

Sovet İttifaqında əlilliyi olan şəxslər sosial eksklüziyaya məhkum idilər, yəni ya tamamilə, ya da müəyyən mənada cəmiyyətin ictimai, mədəni və digər fəaliyyət sferalarından kənarlaşdırılmışdılar. Məhz bunun zəminində müstəqil dövlətimiz tərəfindən seqreqasiya siyasətinin həyata keçirilməsinə başlandı. Səhhəti və digər əlamətlərinə görə cəmiyyət standartlarına cavab verməyən şəxslər üçün xüsusi məktəb, kitabxana, tibb müəssisələrin yaradıldı, eyni zamanda bəzi əlillər kateqoriyası üçün kitabxanalar təşkil edildi.

Problemin dərindən araşdırılması üçün yenidən yaxin tarixi keçmişə nəzər salaq. 1935-ci ildə korlar (əvvəllər yalnız bu terminlər istifadə olunurdu – A.M.) üçün əyalət kitabxanalarının yaradılması, mərkəzdən kənarda yaşayanlara isə kitabxanalararası abonіment vasitəsilə xidmət göstərilməsi barədə dövlət qərar çıxarır. 50-ci illərdən isə korlar üçün dövlət kitabxana xidməti sistemi yaradılır. Daha sonralar Korlar üçün Respublika Mərkəzi Kitabxanası (hazırda Rusiya Dövlət Gözdən Əlillər Kitabxanası) öz fəaliyyətinə başlayır. Elə həmin illərdə klublarda bir şöbə kimi eşitmə məhdudiyyətlilər üçün kitabxanalar da açılır. Bununla belə əhalinin əlil nümayəndələri onlar üçün nəzərdə tutulan xüsusi təhsil və tibb müəssisələrinin tərkibindəki kitabxanalardan da yararlana bilirdilər. Kütləvi kitabxanalara isə o əlillər gələ bilirdilər ki, buna fiziki imkanları çatırdı.

Nəticədə həmin illərdə Sovetlər Birliyindəki kitabxana xidmətini həm eks-

kluziv, həm də seqreqiv (yəni məhdudlaşdırılmış və kənarlaşdırılmış) adlandırmaq olar.

Əlillərin seqreqiv kitabxana xidmətinin əsas mənfi tərəfi bir qrup insanın cəmiyyətdən, ictimaiyyətdən avtomatik ayrılmasına gətirir ki, bu da özlüyündə fiziki məhdudiyyətlilər haqqında, onların problemləri, onlara hansı yardımın edilə biləcəyi və s. təsəvvürün belə olmamasına gətirib çıxarırdı. Sonucda bu insanlar cəmiyyətdən təcrid edilərək, diskriminasiyaya məruz qalırdılar.

Xüsusilə təhsildə daha çox öz əksini tapmış inklüziv proseslər hər bir vətəndaşın cəmiyyətdəki, o cümlədən də mədəni sferada da bərabərliyi əhəmiyyətini daşıyır. Təhsil-təlim sferası ictimaiyyətin mədəni mühitinin tərkib hissəsidir. Təhsil mühitindəki dəyişikliklər digər sferalara birbaşa təsir edərək, bu mühiti trasformasiya edir, dəyişdirir. Göstərmək olar ki, əlilliyi olan şəxslərin cəmiyyətə, təhsilə inteqrasiyası Rusiya Federasiyasında XX əsrin 80-90-cı illərdə başlamışdır.

Yetmiş il əsarətində olduğmuz imperiyadan qurtulmaq və müstəqillik yolunda mübarizələr, Qarabağ müharibəsi xalqımızın gənc bir zümrəsini əlillərə çevirdi. Həmçinin Qarabağ dəhşətlərini yaşamış, stresslərə, qorxulara məruz qalmış gənc xanım-analarımızın müxtəlif fiziki məhdudiyyətli övladlar dünyaya gətirməsinə səbəb oldu.

Bu gün həmin əlil gənclərin hamı ilə bərabər həm təhsilə, həm elmi fəaliyyətə, həm də əyləncəyə hüququ var. Bir çox təcrübə proqramlarına nəzər salsaq qeyd edə bilərik ki, bu proses üç mərhələdə həyata keçir: **İnteqrasiya – İnklüziya – İnklüziv kitabxana.**

Hal-hazırda Azərbaycan kitabxana şəbəkəsi bu prosesin birinci mərhələsini – İnteqrasiya mərhələsini yaşayır. Bu istiqamətdə görülən işləri heç də dolğun saymaq olmaz. Ona görə ki, -

1.Kitabxanaların arxitektura və informasiya təminatı həll olunmayıb;

2.Bir çox kitabxana əməkdaşları əlilliyi olan insanların problemlərini bilmir, onlara kitabxana xidməti haqqında məlumatları yoxdur;

3.Bu gün əksər əlilliyi olan şəxslər kitabxanaya rahat gəlmək kimi psixoloji maneəni keçə bilməyiblər.

Bu mərhələni maksimum səylə keçdikdən sonra inteqrasiya mərhələsi, yəni əlilliyi olan şəxslərin kitabxana məkanına cəlb edilməsi məsələsinin həll edilməsi və inkluziv kitabxana mühitinin formalaşdırılması barədə əminliklə fikir yürütmək olar. Ona görə də inkluziv kitabxana mühitinə xas olan aşağıdakı məsələlər öz həllini tapmalıdır:

* İstifadəçilərə xidmətin yüksək səviyyədə təşkili və çatışmazlıqların qısa müddətdə aradan qaldırılması;

* Əlilliyi olan şəxslərə doğma münasibətin bəslənməsi;

* Hamıya eyni, bərabər xidmət göstərilməsi;

* Kitabxana xidmətlərinin özəlliklə təyin edilməsi.

Qeyd olunan məsələlərin uğurla həll edilməsi üçün mövcud kitabxanalar şəbəkəsinin yenidən qurulmasına ehtiyac vardır. Təəssüflə qeyd etmək olar ki, respublikamızda fəaliyyət göstərən kitabxanalar keyfiyyət və kəmiyyət baxımından müsir tələblərə cavab vermir. Son iyirmi ildə təkcə Bakı şəhərində kitabxanaların sayı təxminən 3 dəfə azalmışdır. Onların yerləşdiyi sahələrdən ticarət və ictimai iaşə xidmətlərinin göstərilməsi məqsədilə istifadə olunur. Bu da kitabxana xidmətlərindən istifadə səviyyəsini minimuma endirir. Ona görə də şəhər və rayonların bir sıra yerlərində müasir kitabxanaların istifadəyə verilməsi, onların xidmətlərindən xüsusən uşaqların və fiziki məhdudiyyətlə vətəndaşların yararlanması üçün əlverişli şərait yaradılmalıdır. Bir sözlə, inklüziv inkişafını şərtləndirən amillərdən biri kimi kitabxanaçılıq işinin təkmilləşdirilməsi perspektiv dövrün prioritetləri sırasında olmalıdır.

Sonda onu demək olar ki, artıq inkişafın yeni mərhələsinə qədəm qoymuş ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan gənclərin və onların ailələrinin təhsil problemlərinin həlli Azərbaycanda sosial-dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardır və biz də bu istiqamətdə atılan hər addımda hər zaman dövlətimizin və onun rəhbərinin yanındayıq.

**Ədəbiyyat**


1. Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqlara təhsil xidmətlərinin göstərilməsi haqqında tədqiqat (Hazırlayan: Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi). URL: www.unicef.org/
2. Dostuzadə, D. İnklüziv təhsil: problemlər və vəzifələr. URL: http: // www. tehsilproblemleri.com/?p=5029
3. İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr mövzusunda V elmi-praktik konfransın materialları. - Bakı: Şərq-Qərb, 2011. - 624 s.
4. “İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi” layihəsinin icrası barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri. URL: http://edu.gov. az/az/page/81/10298
5. Məmmədli, Q. İnklüziv təhsilin inkişafı // Ekspress qəzeti.- 2014.- 22-24 noyabr.- S.10
6. Məmmədova, A. İnkluziv təhsil və kitabxanalar // Azərbaycan müəllimi.- 2018.- 2 fevral.
7. Роль библиотек в условиях системы инклюзивного культурного пространства /Межрегиональный семинар.- Ростов, 2013.- 59 с.

## Инклюзивное образование и библиотечные услуги: проблемы и перспективы

**Резюме:** *В статье представлена информация об инклюзивном образовании, одной из ключевых областей современной образовательной стратегии Азербайджана.*

*Обсуждается роль библиотек в развитии образования, науки и культуры, история библиотечного обслуживания и современная ситуация в инклюзивном образовании. В статье библиотеки рассматриваются как первичные, так и психологические, а также моральные шаги по интеграции молодежи с инвалидностью в образование. Подчеркивается работа, проделанная в этой области в Азербайджане, основные проблемы и перспективы.*

*В статье использована соответствующая информация по области и научно-педагогическая литература.*

**Ключевые слова:** *инклюзивное образование, библиотечное обслуживание, инклюзивная библиотека, система образования, интеграция, обучение.*

## Inclusive education and library services: problems and prospects

**Abstract:** *The article provides information about inclusive education, one of the key areas of modern educational strategy of Azerbaijan.*

*The main role of libraries in the development of education, science and culture, the history of the library service and the contemporary situation in inclusive education are discussed. In the article, libraries are regarded as both psychological as well as moral steps in integrating youth with disabilities into education. The work that have been done in this field in Azerbaijan, the main problems and perspectives are highlighted.*

*Relevant information in the article has been cited on the subject and scientific and pedagogical literature.*

**Key words:** *inclusive education, library service, inclusive library, education system, integration, training.*